**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİNİN**

**KOLLEGİYASININ QƏRARI**

**№ KQ-05**

**Bakı şəhəri** **"02" may 2024-cü il**

**"Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları"nın təsdiq edilməsi və " Ali və orta ixtisas təhsil müəssisələrində yeni ixtisasların açılması və lisenziyaya əlavə olunması qaydaları barədə" Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 1999-cu il 25 iyun tarixli 513 nömrəli əmrinin ləğv edilməsi haqqında**

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun tətbiqi və "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2235 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2242 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 5.11.2-ci yarımbəndini rəhbər tutaraq Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyası **qərara alır**:

1. "Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları" təsdiq edilsin (əlavə olunur).
2. "Ali və orta ixtisas təhsil müəssisələrində yeni ixtisasların açılması və lisenziyaya əlavə olunması qaydaları barədə" Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 1999-cu il 25 iyun tarixli 513 nömrəli əmri ləğv edilsin.
3. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Aparatının Hüquq şöbəsinə (S.Mahmudov) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.
4. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Aparatının Elm və ali təhsil siyasəti şöbəsinə (T.Süleyman), Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dovlət Agentliyinə (Ü.Səttarova) tapşırılsın ki, bu Qərardan irəli gələn vəzifələrin icrasını təmin etsinlər.
5. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Aparatının Vətəndaşlara xidmət və sənədlərlə iş şöbəsinə (R.Xanlarov) tapşırılsın ki, bu Qərarın surətinin Nazirliyin aidiyyəti struktur bölmələrinə və qurumlarına göndərilməsini təmin etsin.
6. Qərarın icrasına nəzarət nazir müavini İdris İsayevə həvalə edilsin.

**Kollegiyanın sədri,**
**Nazir** **Emin Əmrullayev**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2 may 2024-cü il tarixli KQ-05 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

## Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları

### 1. Ümumi müddəalar

1. Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.37-1-ci maddəsinə əsasən hazırlanmışdır və ali, orta ixtisas və peşə təhsili pillələrində yeni təhsil proqramlarının (ixtisasların) açılması məsələlərini tənzimləyir.
2. Yeni təhsil proqramının (ixtisasların) açılması aşağıdakı hallara şamil edilir:

2.1. təhsilin müvafiq pillələri (səviyyələri) üzrə ixtisasların təsnifatına (bundan sonra təsnifat) yeni ixtisasın əlavə olunmasına;
2.2. təsnifatda mövcud olan ixtisas üzrə ali və ya orta ixtisas və ya peşə təhsili müəssisəsində (bundan sonra-təhsil müəssisəsi) ilk dəfə tədrisə başlanılmasına;
2.3. təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının adı dəyişdirilmədən məzmununun dəyişdirilməsinə;
2.4. təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının məzmunu dəyişdirilmədən ixtisasın adının dəyişdirilməsinə.

### 2. Yeni təhsil proqramlarının (ixtisasların) açılmasına dair ümumi tələblər

2.1. Yeni təhsil proqramının (ixtisasın) açılmasına dair ümumi tələblər aşağıdakılardır:
2.1.1. təhsil proqramı (ixtisas) təhsilalanlarda (tələbələrdə) müasir tələblərə və şəraitə uyğunlaşmaq, rəqabət qabiliyyətli olmaq, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərmək, ünsiyyət qurmaq bacarığını formalaşdırmalıdır;
2.1.2. təhsil proqramı (ixtisas) ölkənin inkişaf istiqamətlərinə uyğun olmalı və cəmiyyətin yüksək səviyyəli və rəqabətqabiliyyətli kadr potensialına tələbatının ödənilməsinə xidmət etməlidir;
2.1.3. təhsil proqramı (ixtisas) yüksək intellektual səviyyəyə və praktiki iş qabiliyyətinə, yeni texnologiyalara yiyələnmək, rəqabət mühitində və informasiya axınında çevik istiqamət tapmaq bacarığını formalaşdırmalıdır;
2.1.4. təhsil proqramı (ixtisas) adına və təlim nəticələrinə görə digər təhsil proqramının (ixtisasın) adını və təlim nəticələrini (təhsil proqramı və fənlər/modullar üzrə təlim nəticələrinin, təhsil proqramında tədrisi nəzərdə tutulan fənlərin və onlara ayrılan kreditlərin ən azı 50 faizi fərqli olmalıdır) təkrarlamamalıdır;
2.1.5. təhsil proqramının (ixtisasın) təlim nəticələrinə uyğun peşələr üzrə peşə və kvalifikasiya standartları olmalıdır;
2.1.6. təhsil müəssisəsi təhsil proqramına (ixtisasa) uyğun olaraq tədris prosesini həyata keçirmək üçün lazımi avadanlıqlarla təchiz olunmuş auditoriyaya (təsnifatda mövcud olan ixtisas üzrə təhsil müəssisəsində ilk dəfə tədrisə başlanıldığı halda - hər bir tələbəyə düşən faydalı sahə 1,5 $m^2$ və auditoriyaların sayı əyani təhsilalma forması üzrə mövcud olan tədris qruplarının sayının 50 faizdən az olmamaqla), laboratoriyalara, emalatxanalara, fənn kabinetlərinə və sair maddi-texniki bazaya və infrastruktura malik olmalıdır;
2.1.7. təhsil müəssisəsinin təhsil proqramına (ixtisasa) uyğun tədris-metodiki, elmi-tədqiqat və informasiya resursları və elmi-pedaqoji/mühəndis-pedaqoji (təsnifatda mövcud olan ixtisas üzrə təhsil müəssisəsində ilk dəfə tədrisə başlanıldığı və təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının adı dəyişdirilmədən məzmununun dəyişdirilməsi hallarında – ixtisasın tədris planına uyğun birinci tədris ilində əsas iş yeri üzrə tədrisə cəlb olunacaq elmi-pedaqoji/mühəndis-pedaqoji heyətin ən azı 50 faizi öncədən müəyyən olunmalıdır) heyəti olmalıdır.

### 3. Təsnifata yeni ixtisasın əlavə olunması

3.1. Əmək bazarının dəyişən tələblərinə uyğun yeni təhsil proqramları əsasında ixtisaslı kadrların hazırlanması məqsədi ilə təsnifata yeni ixtisaslar əlavə oluna bilər.
3.2. Təsnifata yeni ixtisasın əlavə olunması maraqlı tərəflərin (assosiasiyalar, ittifaqlar, işəgötürənlər, işəgötürən birlikləri, dövlət orqan və qurumları, sahibkarlar, təhsili müəssisələrinin elmi-pedaqoji heyəti/mühəndis-pedaqoji heyət və sair) təşəbbüsü əsasında həyata keçirilir.
3.3. Təsnifata yeni ixtisasın əlavə olunması təşəbbüsü ilə çıxış edən maraqlı tərəflər əsaslandırıcı müraciətlərini müvafiq təhsil müəssisəsinə təqdim edirlər.
3.4. Müvafiq təhsil müəssisəsi təsnifata yeni ixtisasın əlavə olunması barədə müraciətə 1 (bir) ay müddətində müəssisənin Elmi Şurasında/Pedaqoji Şurasında baxır və müraciəti əsaslandırıcı hesab etdiyi halda, maraqlı tərəflərin, eləcə də mütəxəssislərin və ekspertlərin iştirakı ilə İşçi Qrupunun yaradılması barədə qərar qəbul edir.
3.5. İşçi Qrupu 3 (üç) ay müddətində təklif olunan yeni ixtisasın bu Qaydaların 2-ci hissəsi ilə müəyyən edilmiş ümumi tələblərə uyğunluğunu araşdırır, yeni ixtisas üzrə əmək bazarının mövcud vəziyyətini və gələcək prespektivlərini təhlil edir və qiymətləndirir, işəgötürənlərin (işəgötürən birliklərinin) rəyini alır, beynəlxalq təcrübəni öyrənir, əmək bazarının yeni ixtisas üzrə kadrlara olan potensial tələbatını müəyyən edir və bununla bağlı hazırlanmış sənədləri və materialları (hesabatlar, arayışlar, təqdimatlar, təhlillər, araşdırmalar, sorğular və s.) təhsil müəssisəsinin Elmi Şurasına/Pedaqoji Şurasına təqdim edir. İşçi Qrupu müvafiq sənədlərin hazırlanmasını 3 (üç) ay müddətinə tamamlaya bilməzsə, təhsil müəssisəsinin Elmi/Pedaqoji Şurası qarşısında müddətin artırılması barədə vəsatət qaldırır. Vəsatət məqsədəuyğun hesab edildiyi halda təhsil müəssisəsinin Elmi/Pedaqoji Şurası müddətin ən çoxu bir ay müddətinə artırılması barədə qərar qəbul edir.
3.6. Təhsil müəssisəsinin Elmi Şurası/Pedaqoji Şurası İşçi Qrupunun təqdim etdiyi sənədlər əsasında təsnifata yeni ixtisasın əlavə olunması təklifinə baxır və müvafiq qərar qəbul edir. Şura yeni ixtisasın açılması barədə müsbət qərar qəbul etdiyi halda, İşçi Qrupuna 1 (bir) ay müddətində aşağıdakı sənədlərin hazırlanması barədə tapşırıqlar verir:
3.6.1. təsnifata yeni ixtisasın əlavə olunması barədə əsaslandırma (yeni ixtisasın bu Qaydaların 2-ci hissəsinə uyğunluğu göstərilməklə);
3.6.2. müvafiq pillə və səviyyə üzrə yeni ixtisasın təhsil proqramının layihəsi (əlavə 1);
3.6.3. təhsil proqramının (ixtisasın) təlim nəticələrinin peşə və kvalifikasiya standartlarına uyğunluğu cədvəli (əlavə 3);
3.6.4. təhsil proqramının (ixtisasın) təlim nəticələrinə uyğun peşələr üzrə orta müddətli dövr üçün kadrlara olan tələbat barədə məlumat (əlavə 4).
3.7. Bu Qaydanın 3.6-cı bəndinə əsasən hazırlanmış sənədlər və materiallar təhsil müəssisəsinin Elmi Şurasında/Pedaqoji Şurasında müzakirəyə çıxarılır və Şuranın müsbət qərarı olduqda təsnifata yeni ixtisasın əlavə olunması barədə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra- Nazirlik) qarşısında vəsatət qaldırılır.
3.8. Təsnifata yeni ixtisasın əlavə olunması barədə Nazirliyə təqdim olunan vəsatət məktubuna aşağıdakı sənədlər əlavə edilir:

3.8.1. təsnifata yeni ixtisasın əlavə olunması barədə maraqlı tərəflərin təhsil müəssisəsinə rəsmi müraciəti ( maraqlı tərəf təhsil müəssisələrinin elmi-pedaqoji/mühəndis-pedaqoji heyəti olduqda onların təhsil müəssisəsinin rəhbərliyinə ünvanlanmış yazılı müraciəti);

3.8.2. təsnifata yeni ixtisasın əlavə olunması barədə İşçi Qrupunun yaradılmasına dair təhsil müəssisəsinin Elmi Şurasının/Pedaqoji Şurasının qərarı;

3.8.3. yeni ixtisas üzrə İşçi Qrupunun bu Qaydaların 3.5-ci bəndinə uyğun hazırladığı sənədlər və materiallar (hesabatlar, arayışlar, təqdimatlar, təhlillər, araşdırmalar, sorğular və s.);

3.8.4. Bu Qaydaların 3.6-cı bəndinə əsasən hazırlanmış sənədlər.

3.9. Nazirlik tərəfindən təhsil müəssisəsinin təqdim etdiyi sənədlər və məsələ ilə bağlı Təhsildə Keyfiyyət Təminatı Agentliyinin və Elm v Ali Təhsil üzrə Dövlət Agentliyinin/ Peşə Təhsili üzrə Dövlət Agentliyinin (bundan sonra- Agentliklər) rəy və təklifləri əsasında təsnifata yeni ixtisasın əlavə olunması barədə vəsatətin bu Qaydaların 2-ci hissəsinə uyğunluğu 1 (bir) ay müddətində yoxlanılır.

3.10. Təsnifata yeni ixtisasın əlavə olunması barədə təhsil müəssisəsinin vəsatətinin bu Qaydaların 2-ci hissəsinə uyğun olmadığı Nazirlik tərəfindən müəyyən edildiyi halda, bu barədə təhsil müəssisəsinə səbəbi göstərilməklə məlumat verilir.

3.11. Nazirlik tərəfindən təsnifata yeni ixtisasın əlavə olunması barədə təhsil müəssisəsinin vəsatəti məqsədəuyğun hesab edildiyi halda, bununla bağlı "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq müvafiq normativ hüquqi aktın layihəsi hazırlanır və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.

3.12. Təhsil müəssisəsi bu Qaydaların 3.10-cu bəndində göstərilən məlumatı aldıqdan ən azı 3 (üç) ay sonra məlumatda qeyd olunan səbəbləri aradan qaldırılmaqla Nazirlik qarşısında təkrar vəsatət qaldıra bilər.

## 4. Təsnifatda mövcud olan ixtisas üzrə təhsil müəssisəsində ilk dəfə tədrisə başlanılması

4.1. Təsnifatda mövcud olan ixtisas üzrə təhsil müəssisəsində ilk dəfə (o cümlədən son üç tədris ilində ardıcıl olaraq həmin ixtisas üzrə tələbə qəbulu həyata keçirilmədikdə) tədrisə başlanılması maraqlı tərəflərin (assosiasiyalar, ittifaqlar, işəgötürənlər, işəgötürən birlikləri, dövlət orqan və qurumları, sahibkarlar, təhsili müəssisələrinin elmi-pedaqoji heyəti/ mühəndis-pedaqoji heyət və sair) təşəbbüsü əsasında həyata keçirilir.

4.2. Maraqlı tərəflər təsnifatda mövcud olan ixtisas üzrə ilk dəfə tədrisə başlanılması məqsədi ilə əsaslandırıcı təkliflərini müvafiq profilli təhsil müəssisəsinə təqdim edirlər.

4.3. Təsnifatda mövcud olan ixtisas üzrə təhsil müəssisəsində ilk dəfə tədrisə başlanılması barədə müraciət 1 (bir) ay müddətində təhsil müəssisənin Elmi Şurasında/Pedaqoji Şurasında baxılır və təkliflər əsaslandırıcı hesab edildiyi halda, müvafiq qərarla maraqlı tərəflərin, eləcə də mütəxəssislərin və ekspertlərin iştirakı ilə İşçi Qrupunun yaradılması barədə qərar qəbul edilir.

4.4. İşçi Qrupu 3 (üç) ay müddətində təsnifatda mövcud olan ixtisas üzrə təhsil müəssisində ilk dəfə tədrisə başlanılması məqsədilə tədris olunacaq ixtisasın bu Qaydaların 2-ci hissəsi ilə müəyyən edilmiş ümumi tələblərə uyğunluğunu araşdırır, yeni ixtisas üzrə əmək bazarının mövcud vəziyyətini və gələcək prespektivlərini təhlil edir və qiymətləndirir aparır, işəgötürənlərin (işəgötürən birliklərinin) rəyini alır, beynəlxalq təcrübəni öyrənir, əmək bazarının yeni ixtisas üzrə kadrlara olan potensial tələbatını müəyyən edir və bununla bağlı hazırlanmış sənədləri və materialları (hesabatlar, arayışlar, təqdimatlar, təhlillər, araşdırmalar, sorğular və s.) təhsil müəssisəsinin Elmi Şurasına/Pedaqoji Şurasına təqdim edir. İşçi Qrupu müvafiq sənədlərin hazırlanmasını 3 (üç) ay müddətinə tamamlaya bilməzsə, təhsil müəssisəsinin Elmi/Pedaqoji Şurası qarşısında müddətin artırılması barədə vəsatət qaldırır. Vəsatət məqsədəuyğun hesab edildiyi halda təhsil müəssisəsinin Elmi/Pedaqoji Şurası müddətin ən çoxu bir ay artırılması barədə qərar qəbul edir.

4.5. Təhsil müəssisəsinin Elmi Şurası/Pedaqoji Şurası İşçi Qrupunun təqdim etdiyi sənədlər əsasında təsnifatda mövcud olan ixtisas üzrə təhsil müəssisində ilk dəfə tədrisə başlanılması barədə təklifinə baxır və müvafiq qərar qəbul edir. Şura yeni ixtisasın açılması barədə müsbət qərar qəbul etdiyi halda, İşçi Qrupuna 1 (bir) ay müddətində aşağıdakı sənədlərin hazırlanması barədə tapşırıqlar verir:

4.5.1. ixtisas üzrə təhsil müəssisində ilk dəfə tədrisə başlanılması ilə bağlı əsaslandırma (yeni ixtisasın bu Qaydaların 2-ci hissəsinə uyğunluğu göstərilməklə);

4.5.2. ixtisas üzrə təhsil müəssisəsi tərəfindən hazırlanmış təhsil proqramının layihəsi (əlavə 1);

4.5.3. fənlərin/modulların proqramlarının layihəsi (əlavə 2);

4.5.4. təhsil proqramının tədris planının layihəsi;

4.5.5. təhsil proqramının (ixtisasın) təlim nəticələrinin peşə və kvalifikasiya standartlarına uyğunluğu cədvəli (əlavə 3);

4.5.6. təhsil proqramının (ixtisasın) təlim nəticələrinə uyğun peşələr üzrə orta müddətli dövr üçün kadrlara olan tələbat barədə məlumat (əlavə 4);

4.5.7. təhsil proqramı üzrə təhsilalanların say həddi barədə məlumat (əlavə 8);

4.5.8. tədrisin təşkilinə dair, eləcə də metodiki təminatla bağlı tövsiyələr;

4.5.9. təhsil proqramının icrası üçün tələb olunan tədris, elmi-tədqiqat və informasiya resursları təminat barədə məlumat (əlavə 5);

4.5.10. təhsil proqramının icrası üçün tələb olunan elmi-pedaqoji/mühəndis-pedaqoji kadr potensialı barədə məlumat (əlavə 6);

4.5.11. təhsil proqramının icrası üçün tələb olunan maddi-texniki baza və infrastruktur barədə məlumat (əlavə 7);

4.5.12. təcrübə bazaları barədə məlumat.

4.6. Bu Qaydaların 4.5-ci bəndinə əsasən hazırlanmış sənədlər və materiallar təhsil müəssisəsinin Elmi Şurasında/Pedaqoji Şurasında müzakirəyə çıxarılır və Şuranın müsbət qərarı olduqda təsnifatda mövcud olan ixtisas üzrə təhsili müəssisəsində ilk dəfə növbəti tədris ilindən tədrisə başlanılması barədə Nazirlik qarşısında (cari tədris ilinin 1 oktyabr tarixinədək) vəsatət qaldırılır.

4.7. Təsnifatda mövcud olan ixtisas üzrə təhsil müəssisəsində ilk dəfə tədrisə başlanılması barədə Nazirliyə təqdim olunan vəsatət məktubuna aşağıdakı sənədlər əlavə edilir:

4.7.1. təsnifatda mövcud olan ixtisas üzrə təhsili müəssisəsində ilk dəfə tədrisə başlanılması barədə maraqlı tərəflərin təhsil müəssisəsinə rəsmi müraciəti ( maraqlı tərəf təhsil müəssisələrinin elmi-pedaqoji/mühəndis-pedaqoji heyəti olduqda onların təhsil müəssisəsinin rəhbərliyinə ünvanlanmış yazılı müraciəti);

4.7.2. İşçi Qrupunun yaradılmasına dair təhsil müəssisəsinin Elmi Şurasının/Pedaqoji Şurasının qərarı;

4.7.3. tədris ediləcək ixtisas üzrə İşçi Qrupunun bu Qaydaların 4.4-cü bəndinə uyğun hazırladığı sənədlər və materiallar (hesabatlar, arayışlar, təqdimatlar, təhlillər, araşdırmalar, sorğular və s.);

4.7.4. bu Qaydanın 4.5-ci bəndinə əsasən hazırlanmış sənədlər.

4.8. Nazirlik tərəfindən təhsil müəssisəsinin təqdim etdiyi sənədlər və məsələ ilə bağlı Agentliklərin rəy və təklifləri əsasında ixtisas üzrə təhsil müəssisəsində ilk dəfə tədrisə başlanılması barədə vəsatətin bu Qaydaların 2-ci hissəsinə uyğunluğu 1 (bir) ay müddətində yoxlanılır.

4.9. Təsnifatda mövcud olan ixtisas üzrə təhsili müəssisəsində ilk dəfə tədrisə başlanılması barədə təhsil müəssisəsinin vəsatətinin bu Qaydaların 2-ci hissəsinə uyğun olmadığı Nazirlik tərəfindən müəyyən edildiyi halda, bu barədə təhsil müəssisəsinə səbəbi göstərilməklə məlumat verilir.

4.10. Nazirlik ixtisas üzrə təhsil müəssisəsində ilk dəfə tədrisə başlanılması məqsədəuyğun hesab etdiyi halda, təhsil proqramını təsdiq edir və növbəti tədris ili üçün tələbə qəbulu ilə bağlı hazırlanacaq layihədə təhsil müəssisəsinin təkliflərini nəzərə alır.

4.11. Təhsil müəssisəsi bu Qaydaların 4.9-cu bəndində göstərilən məlumatı aldıqdan ən azı 3 (üç) ay sonra məlumatda qeyd olunan səbəbləri aradan qaldırılmaqla Nazirlik qarşısında təkrar vəsatət qaldıra bilər.

## 5. Təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının adı dəyişdirilmədən məzmununun dəyişdirilməsi

5.1. Təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının adı dəyişdirilmədən məzmununun dəyişdirilməsi ((təhsil proqramı və fənlər/modullar üzrə təlim nəticələrinin, təhsil proqramında tədrisi nəzərdə tutulan fənlərin və onlara ayrılan kreditlərin ən azı 50 faizi dəyişdirildiyi halda) maraqlı tərəflərin (assosiasiyalar, ittifaqlar, işəgötürənlər, işəgötürən birlikləri, dövlət orqan və qurumları, sahibkarlar, təhsili müəssisələrinin elmi-pedaqoji heyəti/ mühəndis-pedaqoji heyət və sair) təşəbbüsü əsasında həyata keçirilir.

5.2. Təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının adı dəyişdirilmədən məzmununun dəyişdirilməsi təşəbbüsü ilə çıxış edən maraqlı tərəflər əsaslandırıcı müraciətlərini müvafiq profilli təhsil müəssisəsinə təqdim edirlər.

5.3. Təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının adı dəyişdirilmədən məzmununun dəyişdirilməsi barədə müraciətə təhsil müəssisəsinin Elmi Şurasında/Pedaqoji Şurasında 1 (bir) ay müddətində baxılır və təkliflər əsaslandırıcı hesab edildiyi halda, müvafiq qərarla maraqlı tərəflərin, eləcə də mütəxəssis və ekspertlərin iştirakı ilə İşçi Qrupu yaradılır.

5.4. İşçi Qrupu 3 (üç) ay müddətində təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının adı dəyişdirilmədən məzmununun dəyişdirilməsi məqsədilə əmək bazarının yeni təlim nəticələrinə malik mütəxəssislərə tələbatını müəyyən edir, müvafiq araşdırmalar və qiymətləndirmələr aparır, sahə üzrə işəgötürənlərin (işəgötürən birliklərin) rəyini alır və bununla bağlı hazırlanmış sənədləri və materialları (hesabatlar, arayışlar, təqdimatlar, təhlillər, araşdırmalar, sorğular və s.) təhsil müəssisəsinin Elmi Şurasına/Pedaqoji Şurasına təqdim edir. İşçi Qrupu müvafiq sənədlərin hazırlanmasını 3 (üç) ay müddətinə tamamlaya bilməzsə, təhsil müəssisəsinin Elmi/Pedaqoji Şurası qarşısında müddətin artırılması barədə vəsatət qaldırır. Vəsatət məqsədəuyğun hesab edildiyi halda təhsil müəssisəsinin Elmi/Pedaqoji Şurası müddətin ən çoxu bir ay müddətinə artırılması barədə qərar qəbul edir.

5.5. Təhsil müəssisəsinin Elmi Şurasında/Pedaqoji Şurasında təsnifatda mövcud olan ixtisas üzrə təhsil proqramının adı dəyişdirilmədən məzmununun dəyişdirilməsi barədə barədə təklifə baxılır və müsbət qərar qəbul edildiyi halda, İşçi Qrupuna 1 (bir) ay müddətində aşağıdakı sənədlərin hazırlanması barədə tapşırıqlar verilir:

5.5.1. təsnifatda mövcud olan ixtisas üzrə təhsil proqramının adı dəyişdirilmədən məzmununun dəyişdirilməsi ilə bağlı əsaslandırma (yeni məzmunun bu Qaydaların 2-ci hissəsinə uyğunluğu göstərilməklə);

5.5.2. müvafiq pillə və səviyyə üzrə təhsil proqramının yeni layihəsi (əlavə 1);

5.5.3. fənlərin/modulların proqramlarının layihəsi (əlavə 2);

5.5.4. təhsil proqramının (ixtisasın) təlim nəticələrinin peşə və kvalifikasiya standartlarına uyğunluğu cədvəli (əlavə 3);

5.5.5. təhsil proqramının (ixtisasın) təlim nəticələrinə uyğun peşələr üzrə orta müddətli dövr üçün kadrlara olan tələbat barədə məlumat (əlavə 4);

5.5.6. tədrisin təşkilinə dair, eləcə də metodiki təminatla bağlı tövsiyələr;

5.5.7. təhsil proqramının icrası üçün tələb olunan tədris, elmi-tədqiqat və informasiya resursları təminat barədə məlumat (əlavə 5);

5.5.8. təhsil proqramının icrası üçün tələb olunan elmi-pedaqoji/mühəndis-pedaqoji kadr potensialı barədə məlumat (əlavə 6);

5.5.9. təhsil proqramının icrası üçün tələb olunan maddi-texniki baza barədə məlumat (əlavə 7);

5.5.10. tələb olunan təcrübə bazaları barədə məlumat.

5.6. Bu Qaydaların 5.5-ci bəndinə əsasən hazırlanmış sənədlər və materiallar təhsil müəssisəsinin Elmi Şurasında/Pedaqoji Şurasında müzakirəyə çıxarılır və Şuranın müsbət qərarı olduqda təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının adı dəyişdirilmədən məzmununun dəyişdirilməsi barədə Nazirlik qarşısında vəsatət qaldırılır.

5.7. Təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının adı dəyişdirilmədən məzmununun dəyişdirilməsi barədə Nazirliyə təqdim olunan vəsatət məktubuna aşağıdakı sənədlər əlavə edilir:

5.7.1. təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının adı dəyişdirilmədən məzmununun dəyişdirilməsi barədə maraqlı tərəflərin təhsil müəssisəsinə rəsmi müraciəti ( maraqlı tərəf təhsil müəssisələrinin elmi-pedaqoji/mühəndis-pedaqoji heyəti olduqda onların təhsil müəssisəsinin rəhbərliyinə ünvanlanmış yazılı müraciəti);

5.7.2. İşçi Qrupunun yaradılmasına dair təhsil müəssisəsinin Elmi Şurasının/Pedaqoji Şurasının qərarı;

5.7.3. yeni təhsil proqramı üzrə tədris ediləcək ixtisas üzrə İşçi Qrupunun bu Qaydaların 5.4-cü bəndinə uyğun hazırladığı sənədlər və materiallar (hesabatlar, arayışlar, təqdimatlar, təhlillər, araşdırmalar, sorğular və s.);

5.7.4. Bu Qaydanın 5.5-ci bəndinə uyğun olaraq hazırlanmış sənədlər.

5.8. Nazirlik təhsil müəssisəsinin təqdim etdiyi sənədlər və məsələ ilə bağlı Agentliklərin rəy və təklifləri əsasında təhsil müəssisəsinin vəsatətinin bu Qaydaların 2-ci hissəsinə uyğunluğunu 1 (bir) ay müddətində yoxlayır.

5.9. Təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının adı dəyişdirilmədən məzmununun dəyişdirilməsi barədə təhsil müəssisəsinin vəsatətinin bu Qaydaların 2-ci hissəsinə uyğun olmadığı Nazirlik tərəfindən müəyyən edildiyi halda, bu barədə təhsil müəssisəsinə səbəbi göstərilməklə məlumat verilir.

5.10. Nazirlik təhsil müəssisəsinin vəsatətini məqsədəuyğun hesab etdiyi halda, təsnifatda mövcud olan müvafiq ixtisas üzrə yeni təhsil proqramını təsdiq edir.

5.11. Təhsil müəssisəsi bu Qaydaların 5.10-cu bəndində göstərilən məlumatı aldıqdan ən azı 3 (üç) ay sonra məlumatda qeyd olunan səbəbləri aradan qaldırılmaqla Nazirlik qarşısında təkrar vəsatət qaldıra bilər.

## 6. Təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının məzmunu dəyişdirilmədən ixtisasın adının dəyişdirilməsi

6.1. Təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının məzmunu dəyişdirilmədən ixtisasın adının dəyişdirilməsi maraqlı tərəflərin (assosiasiyalar, ittifaqlar, işəgötürənlər, işəgötürən birlikləri, dövlət orqan və qurumları, sahibkarlar, təhsili müəssisələrinin elmi-pedaqoji heyəti/ mühəndis-pedaqoji heyət və sair) təşəbbüsü əsasında həyata keçirilir.

6.2. Maraqlı tərəflər təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının məzmunu dəyişdirilmədən ixtisasın adının dəyişdirilməsi barədə əsaslandırıcı təkliflərini təhsil müəssisəsinə təqdim edirlər.

6.3. Təkliflər təhsil müəssisəsinin Elmi Şurasında/Pedaqoji Şurasında müzakirəyə çıxarılır və Şuranın müsbət qərarı olduqda təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının məzmunu dəyişdirilmədən ixtisasın adının dəyişdirilməsi barədə Nazirlik qarşısında vəsatət qaldırılır.

6.4. Təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının məzmunu dəyişdirilmədən ixtisasın adının dəyişdirilməsi barədə Nazirliyə təqdim olunan vəsatət məktubuna aşağıdakı sənədlər əlavə edilir:

6.4.1. təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının məzmunu dəyişdirilmədən ixtisasın adının dəyişdirilməsi barədə maraqlı tərəflərin təhsil müəssisəsinə rəsmi müraciəti ( maraqlı tərəf təhsil müəssisələrinin elmi-pedaqoji/mühəndis-pedaqoji heyəti olduqda onların təhsil müəssisəsinin rəhbərliyinə ünvanlanmış yazılı müraciəti);

6.4.2. təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının məzmunu dəyişdirilmədən ixtisasın adının dəyişdirilməsi barədə əsaslandırma (bu Qaydaların 2-ci hissəsinə uyğunluğu göstərilməklə);

6.4.3. təhsil müəssisəsinin Elmi Şurasının/Pedaqoji Şurasının qərarı.

6.5. Nazirlik təhsil müəssisəsinin təqdim etdiyi sənədlər və məsələ ilə bağlı Agentliklərin rəy və təklifləri əsasında təhsil müəssisəsinin vəsatətinin bu Qaydaların 2-ci hissəsinə uyğunluğunu 1 (bir) ay müddətində yoxlayır.

6.6. Təsnifatda mövcud olan müvafiq ixtisas üzrə təhsil proqramının məzmunu dəyişdirilmədən ixtisasın adının dəyişdirilməsi barədə təhsil müəssisəsinin vəsatətinin bu Qaydaların 2-ci hissəsinə uyğun olmadığı Nazirlik tərəfindən müəyyən edildiyi halda, bu barədə təhsil müəssisəsinə səbəbi göstərilməklə məlumat verilir.

6.7. Nazirlik təhsil müəssisəsinin vəsatətini məqsədəuyğun hesab etdiyi halda, bununla bağlı “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq müvafiq normativ hüquqi aktın layihəsini hazırlayaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir.

6.8. Təhsil müəssisəsi bu Qaydaların 6.6-cı bəndində göstərilən məlumatı aldıqdan ən azı 3 (üç) ay sonra məlumatda qeyd olunan səbəbləri aradan qaldırılmaqla Nazirlik qarşısında təkrar vəsatət qaldıra bilər.

“Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları”na

Əlavə 1

**İxtisasın təhsil proqramının layihəsi**
*(nümunəvi struktur)*

**ümumi müddəalar**

təhsil proqramının mahiyyəti
təhsil proqramının məqsədləri
təhsil proqramının hazırlanmasının hüquqi əsasları
istifadə olunan anlayışlar

**məzunların ixtisas xarakteristikaları və səriştəliliyi**

təhsil proqramını bitirmiş məzunların təlim nəticələri: ümumi/yumuşaq bacarıqlar və ixtisas/sərt bacarıqları
fənn proqramını bitirmiş məzunların təlim nəticələri: ümumi/yumuşaq bacarıqlar və ixtisas/sərt bacarıqları
təhsil proqramı üzrə məzunlara verilən ixtisas dərəcəsi
təhsil proqramını bitirmiş məzunların akademik imkanları
təhsil proqramını bitirmiş məzunların məşğulluq imkanları

**təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər**

təhsil proqramının aid edildiyi kvalifikasiya səviyyəsi
təhsil proqramı üzrə normativ təhsil müddəti
təhsil proqramı üzrə ümumi kreditlərin sayı
təhsil proqramı üzrə ümumi fənlər
təhsil proqramı üzrə ixtisas fənləri
təhsil proqramı üzrə təcrübə
tədris dili

**maddi-texniki, tədris bazası və kadr potensialı**

ixtisaslaşdırılmış auditoriyalar
ixtisaslaşdırılmış kabinetlər
ixtisaslaşdırılmış laboratoriyalar
ixtisaslaşdırılmış emalatxanalar
tədris-metodiki, elmi-tədqiqat və informasiya resursları
təcrübə bazası
fənlərə uyğun elmi-pedaqoji/mühəndis-pedaqoji heyət

**tədris prosesinin forma və metodları**

tədrisin işinin növləri
təhsilalma formaları
tədris metodları

**yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə**
yekun dövlət attestasiyası (olduğu halda) üzrə tələblər
qiymətləndirmə üsulları

**İxtisasın təhsil proqramının hazırlanmasında iştirak edən İşçi Qrupunun üzvlərinin siyahısı**

**Qeyd:** *yeni ixtisasın təhsil proqramı hazırlanan zaman təhsilin müvafiq pillə və səviyyəsi üzrə təhsilin məzmununa və təşkilinə dair qanunvericilik aktlarının tələbləri əsas götürülməlidir.*

“Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları”na

Əlavə 2

**Fənn/modul proqramının layihəsi**
*(nümunəvi struktur)*

**ümumi müddəalar**

fənn/modul proqramının ümumi təsviri
fənn/modul proqramının məqsədləri
fənnin/modulun aid edildiyi ixtisas və fənnin göstəriciləri (ümumi fənni/ixtisas fənni/təhsil müəssisəsi tərəfindən daxil edilən fənn)
istifadə olunan anlayışlar

**təlim nəticələri**

fənn/modul proqramını bitirmiş məzunların təlim nəticələri: ümumi/yumuşaq bacarıqlar və ixtisas/sərt bacarıqları
fənnin/modulun təlim nəticələrinin təhsil proqramının təlim nəticələri ilə uyğunluğu

**təhsilin təşkilinə və məzmununa qoyulan minimum tələblər**

fənn/modul üzrə tədrisin təşkili növləri (mühazirə, praktiki məşğələ, laboratoriya, sərbəst iş və s.)
fənnə/modula ayrılan kredit
fənn/modul üzrə tədris saatları, tədris mövzuları və onların qısa xülasəsi
tədris metodları
tədris dili

**Fənn/modul proqramının hazırlanmasında iştirak edən İşçi Qrupunun üzvlərinin siyahısı**

**Qeyd:** *Fənn/modul proqramına təhsil müəssisəsi tərəfindən əlavələr edilə bilər.*

“Yeni təhsil proqramlarının (ixtisasların)
açılması Qaydaları”na

Əlavə 3

**Təhsil proqramının (ixtisasın) təlim nəticələrinin peşə və kvalifikasiya standartlarına uyğunluğu cədvəli**

| TƏHSİL PROQRAMI | | | | PEŞƏ VƏ KVALİFİKASİYA STANDARTI | | | |
|---|---|---|---|---|---|---|---|
| ixtisasın adı | ixtisasın şifri | ixtisasın aid edildiyi kvalifikasiya səviyyəsi | təlim nəticələri | peşənin adı | standartın kodu | standartın aid edildiyi kvalifikasiya səviyyəsi | təlim nəticələri |
| | | | x | | | | x |
| | | | | | | | |
| x | x | x | ümumi /yumuşaq bacarıqlar | x | x | x | ümumi /yumuşaq bacarıqlar |
| x | x | x | | x | x | x | |
| x | x | x | | x | x | x | |
| x | x | x | | x | x | x | |
| x | x | x | | x | x | x | |
| x | x | x | | x | x | x | |
| x | x | x | | x | x | x | |
| x | x | x | | x | x | x | |
| x | x | x | ixtisas/sərt bacarıqlar | x | x | x | əsas/spesifik bacarıqlar |
| x | x | x | | x | x | x | |
| x | x | x | | x | x | x | |
| x | x | x | | x | x | x | |
| x | x | x | | x | x | x | |
| x | x | x | | x | x | x | |
| x | x | x | | x | x | x | |
| x | x | x | | x | x | x | |

Qeyd: təhsil proqramı üzrə təlim nəticələri bir neçə peşə üzrə peşə və kvalifikasiya standartlarının təlim nəticələrinə uyğun gəldikdə uyğunluq cədvəli hər biri üzrə ayrı-ayrılıqda tərtib edilir.

“Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları”na
Əlavə 4

**TƏHSIL PROQRAMININ (IXTISASIN) TƏLIM NƏTICƏLƏRINƏ UYĞUN PEŞƏLƏR ÜZRƏ ORTA MÜDDƏTLI DÖVR ÜÇÜN KADRLARA OLAN TƏLƏBAT BARƏDƏ MƏLUMAT**

| TƏHSİL PROQRAMI | | | təlim nəticələrinə uyğun peşənin adı | peşə və kvalifikasiya standartın kodu | peşə və kvalifikasiya standartın aid edildiyi kvalifikasiya səviyyəsi | kadrlara olan potensial tələbat (nəfər) | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| ixtisasın adı | ixtisasın şifri | ixtisasın aid edildiyi kvalifikasiya səviyyəsi | | | | ________ il | ________ il | ________ il | ________ il |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |

“Yeni təhsil proqramlarının (ixtisasların) açılması
Qaydaları”na

Əlavə 5

**TƏDRIS, ELMI-TƏDQIQAT VƏ INFORMASIYA RESURSLARI ILƏ TƏMİNAT BARƏDƏ MƏLUMAT**

____________________________________________
təhsil proqramının (ixtisasın) şifri və adı

**TƏDRİS RESURSLARI**

| kağız tədris resursları (kitablar, dərsliklər və s.) | rəqəmsal tədris resursları (rəqəmli, mətnli, qrafik, audio, video və digər rəqəmsal materiallar) | əyani tədris vasitələri (plakat, cədvəl, sxem, maket, model və s.) | avanadanlıqlar (cihaz, qurğu, dəzgah və s.) |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

**ELMİ-TƏDQİQAT RESURSLARI**

| elmi mərkəzlər | elmi laboratoriyalar | elmi bazalara çıxış - “SCOPUS”, “Web of Science” və s.) |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

**İNFORMASİYA RESURSLARI**

| məlumat bazaları | məlumat-axtarış sistemləri | reyestrlər və digər informasiya resursları |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

**Qeyd:** bu formalar ixtisasın təhsil proqramında olan fənlərin (modulların) hər biri üçün ayrı-ayrılıqda tərtib edilməlidir və tələbə sayına uyğun olmalıdır.

“Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları”na
Əlavə 6

**ELMİ-PEDAQOJI / MÜHƏNDIS PEDAQOJI KADR POTENSIALI HAQQINDA**
(________________ tarixinə olan)

**MƏLUMAT**

_______________________________________
təhsil proqramının
(ixtisasın) şifri və adı

| adı | soyadı | atasının adı | təvəllüdü | təhsili | | | elmi dərəcəsi | tədqiqat sahəsi* | elmi adı | cari iş yeri (əsas,əlavə, əvəzçilik) | tədris ilinin** əvvəlinə nəzərdə tutulan əsas iş yeri | əmək stajı, il | pedaqoji stajı, il | ştat cədvəli üzrə vəzifəsi | tədris ilinin** əvvəlinə ştat cədvəli üzrə vəzifəsi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | təhsil müəssisəsininadı | təhsilini bitirdiyi il | təhsil səviyyəsi | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | |

*dərc olunmuş elmi əsərlərin və məqalələrin siyahısı cədvələ əlavə olunmalıdır.
** tədris ilinin əvvəlinə dedikdə təhsil müəssisəsində ilk dəfə tədrisə başlanıldığı tədris ili başa düşülür.

Qeyd: 2-ci tədris ilindən başlayaraq elmi-pedaqoji/mühəndis-pedaqoji heyətin ən azı 50 faizinin təhsil müəssisəsində əsas iş yeri üzrə tədrisə cəlb olunacağı barədə təhsil müəssisəsinin rəhbərinin iltizamı formaya əlavə olunmalıdır.

“Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları”na
Əlavə 7

**Təhsil proqramının icrası üçün tələb olunan maddi-texniki baza və infrastruktur barədə məlumat**

_______________________________________
təhsil proqramının (ixtisasın) şifri və adı

| **maddi-texniki baza və infrastruktur** | **sayı, ədəd** | **ümumi sahə, kv.m.** | **faydalı sahə, kv.m.** | **Istifadə hüququ (icarə, öz mülkiyyəti)** | **tələbə tutumu, nəfər** |
|---|---|---|---|---|---|
| tədris binası: | | | | | |
| ..... | | | | | |
| ...... | | | | | |
| ...... | | | | | |
| ixtisaslaşdırılmış auditoriya: | | | | | |
| ..... | | | | | |
| ...... | | | | | |
| ...... | | | | | |
| ixtisaslaşdırılmış tədris kabineti: | | | | | |
| ..... | | | | | |
| ...... | | | | | |
| ...... | | | | | |
| ixtisaslaşdırılmış laboratoriya: | | | | | |
| ..... | | | | | |
| ...... | | | | | |
| ...... | | | | | |
| ixtisaslaşdırılmış emalatxana: | | | | | |
| ..... | | | | | |
| ...... | | | | | |
| ...... | | | | | |
| istehsalat -təcrübə otağı: | | | | | |
| ..... | | | | | |
| ...... | | | | | |
| ...... | | | | | |

“Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları”na
əlavə 8

**TƏHSIL PROQRAMI ÜZRƏ TƏHSILALANLARIN SAY HƏDDI BARƏDƏ MƏLUMAT**

| İxtisasın | | | | | | tələbə qəbulu üzrə proqnoz (nəfər)<br>______________ tədris ili | | | Təhsil haqqı (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|
| adı | şifri | təhsil pilləsi | təhsil səviyyəsi | kvalifikasiya səviyyəsi | təhsil müddəti | azərbaycan bölməsi | rus bölməsi | ingilis bölməsi | |
| | | | | | | | | | |

Qeyd: bu forma ixtisasın hər bir təhsil pilləsi / səviyyəsi üzrə ayrı-ayrılıqda tərtib olunmalıdır.